DOI: https://doi.org/10.36719/2663-4619/100/19-31

**Aidə Babutcu**
Ərciyəs Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9606-2086
aidababutcu@erciyes.edu.tr

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ERKƏN DÖVRLƏRİNDƏ OSMANLI RUHUNUN AYNASI OLAN TÜRK ƏDİBƏLƏRİ

**Xülasə**

Tənzimat dövründən başlayaraq cümhuriyyətin qurulmasına qədər olan dövrdə türk cəmiyyəti ictimai-siyasi sahədə xeyli təbəddülat yaşamışdır. Böyük bir imperatorluğun varisi olduğunu türk insanı heç vaxt unutmamış, osmanlı ruhunu cümhuriyyətə inikas etdirmək üçün yeni dövlətin qurulması, düşmənlərə qarşı mübarizə, mədəni quruculuq işlərində əzmli və təşəbbüskar olmuşdur. Bir sözlə, XX əsrin başlanğıcında qərb dövlətləri Osmanlı dövlətinin tənəzzülünü düşünsə də, Cümhuriyyətin qurulması ilə türk cəmiyyəti öz müqəddərratını damarındakı qanın hökmüylə həll etmiş, dünya dövlətləri ilə bir sırada addımlaya bilən modern bir türk cəmiyyətinin siyasi-hərbi, mənəvi-mədəni gücünü isbat edə bilmişdi.

Türk qadını bu mərhələdə cəmiyyətin yeniliklərinə ayaq uydurmaya çalışmış, mədəni-maarif işlərinə bilavasitə qoşulmuşdur. Osmanlı-türk modernləşməsi olaraq dəyərləndirilən bu keçid dövründə Nəzihə Mühiddin, Şükufə Nihal Başar, Leyla Saz, Güzidə Səbri Aygün, Müfidə Fərid Tək kimi bəzi türk ədibələri Osmanlıdan Cümhuriyyətin erkən dövrlərinə qədər milli duyğu və düşüncələri ilə osmanlı ruhunu, izlərini yaşada bilmişlər. Yazdıqları əsərlər və məqalələr, qoşulduqları dərnəklər və konfranslar nəticəsində qadın hərəkatlarında ilkin və mühüm nailiyyətlər əldə etmişlər. Dövrün sosial-mədəni şərtləri məhdud olduğu üçün qadınlarla bağlı fəaliyyətlər tənqidi qarşılanır, bəzən rədd edilirdi. Bütün maneələrə rəğmən, adı çəkilən seçkin türk xanımları türk qadınının haqq və hüququnu, təhsilini dəstəkləmək üçün, cəmiyyətdə və məslək həyatında təmsil və təbliğini müdafiə etmək üçün əsərləri və maddi varlıqları ilə zəmin hazırlayırdılar. Təəssüf ki, cümhuriyyət dövründə müxtəlif ədəbi janrlarda qadınları nəzərə alaraq maraqlı mövzularda yazdıqları əsərlərlə türk ədəbiyyatına məlahətli xanım nəfəsi və qətiyyətli yazıçı qadın mövqeyi gətirən bu ədibələrin çoxlarının adı dərsliklərə daxil edilməmiş, təbliğatdan uzaq qalmış, əsasən unudulmuşdur.

Məqaləmizdə bu fədakar ədibələrin osmanlıdan cümhuriyyətə qədər keçdikləri həyat yolu və təşəbbüs etdikləri mədəni fəaliyyətlər gözdən keçiriləcəkdir.

***Açar sözlər:*** *Tənzimat, Osmanlı, Cümhuriyyət, qadın, ədibə, türk, hərəkat*

**Aida Babutju**
Erciyes University
PhD in Philology
https://orcid.org/0000-0001-9606-2086
aidababutcu@erciyes.edu.tr

# Turkish women poets who were the mirror of the Ottoman spirit in the early periods of the Republic of Turkey

**Abstract**

In the process starting from the Tanzimat period and extending to the Republican period, Turkish society has undergone changes in many areas. In this change, the Turkish woman has faced the struggle to participate in both social and political life. They did not break away from their

essence until they came to the Republic from the Ottoman Empire, they were able to carry that spirit on that trail.

There are some Turkish Ladies in the Ottoman-Turkish modernization who were able to keep the Ottoman spirit alive with their national feelings and ideas that they carried in their selves such as Nezihe Muhittin, Shukufe Nihal Bashar, Leyla Saz, Guzide Sabri Aygun, Mufide Ferit Tek. They were able to be successful in women's movements with the works and articles they wrote, the associations and conferences they attended. They became pioneers in addition to being able to participate in Turkish social and political life from the Tanzimat to the early republican period. In addition to the fact that conditions were limited at that time, every activity related to women was criticized and restricted.

Despite these obstacles, these distinguished Turkish ladies are able to carry the Ottoman spirit, as well as to step into the rights of the Turkish woman, their education, social and political participation, professional and business life, etc. they have left their mark on history with the works and studies they have created.

In this study, the lives and works of these women editors in the transition from the Ottoman Empire to the Republic were examined.

***Keywords:*** *Tanzimat, Ottoman, Turkish Ladies, national, activity*

## Giriş

Əsasən 1800-cü illərdə doğmuş-böyümüş və yetişkin çağlarındakı fəaliyyətləri ilə Osmanlı ab-havasını cümhuriyyətdə yaşadan ədibələri mövzuya daxil etdiyimiz üçün bu dövrün siyasi-ictimai mənzərəsinə qısaca nəzər salmalıyıq.

Əvvəla, osmanlının tənəzzülünə səbəb olan siyasi-ictimai səbəblər və bu səbəblərdən təsirlənən ədəbi mühitin düşüncə sistemi, hadisələrin gedişatına təqdirəlayiq, təzadlı və mühafizəkar münasibətlər idrak edilməlidir. Bu dövrün başlıca fikri cərəyanı osmanlıcılıq, başqa adla osmanlı milliyətçiliyi idi. İttihadi-ənasir düşüncəsinə əsaslanan osmanlıcılığın məqsədi osmanlı imperatorluğunun sərhədləri daxilində yaşayan xalqları dil, din, məzhəb, irq fərqi olmadan qaynayıb-qarışmış bir cəmiyyət halına gətirmək, bir mənsubiyyət – osmanlı adı altında birləşdirmək idi. Müsəlman və qeyri-müsəlman xalqlardan ibarət olan bu osmanlı vətəndaşlığı həm də xarici dövlətlərə, xüsusən qərbə qarşı osmanlı imperatorluğunu qorumağı hədəf alırdı. Beləcə, osmanlı dövləti himayəsindəki azsaylı etnik birliklərin dövlətə qarşı kiçik üsyanlarına əngəl olaraq, onların haqq və hüquqlarına sahib çıxaraq demokratik dövlət sistemini bir müddət qorudu. Tənzimat və İslahat fərmanı, məşrutiyyət elan edildi, lakin osmanlıcılıq xalqların milli duyğularının önünə keçə bilmədi, xalqlar yeni əsrin başlanğıcında öz müstəqil dövlətlərini qurmaq üçün ayaqlandılar, osmanlı dövlətindən ayrıldılar, nəticədə Balkan müharibələri ilə osmanlıcılık tamamilə zəiflədi, tədbirlər işə yaramadı (Avcı, 2016).

Ümumiyyətlə, osmanlı cəmiyyəti bu dövrdə kökü keçmişə söykənən səbəblərə görə hər sahədə bir geriləmə və durğunluq yaşayırdı. Bir zamanlar İnka və Aztek imperatorluqlarının Avropaya gümüş gətirməsiylə osmanlı imperatorluğunun əsas gəlir mənbəyi olan savaş qənimətləri və gümüş axça dəyərsizləşdi və iqtisadi inflyasiya başladı.

Digər tərəfdən, qurulduğu ilk dövrlərdə osmanlı dövlətinin qazandığı hərbi qalibiyyətlərin əsas dəstəyi barıt idi. Avropa dövlətləri də sonrakı illərdə barıtı kəşf etdi, beləliklə də, qərbdə Roma, şərqdə İran kimi güclü dövlətlərin qonşusu olmaq, hər hansı hərbi müdaxilə ehtiyacı olarsa, həm çətin, həm də məsrəfli olmağa başladı. Əlbəttə, sərhədlərini hərbi müdaxilələrlə genişləndirən böyük bir imperatorluq üçün bu ərazini qorumaq böyük xərclər, imtiyazlar tələb edirdi. Hakimiyyətdə tez-tez padşah dəyişikliyi və hər taxt dəyişəndə cülus bəxşişində artışların olması, savaşların uzun davam etməsi, aparılan islahatların yararsızlığı, daxili və xarici müqavimətlərin çoxalması mərkəzi idarə sistemini zəiflətdi, bununla da ictimai-iqtisadi problemlər, təhsildə geriləmə ölkəni tənəzzülə, parçalanmağa doğru sürüklədi. Tədqiq etdiyimiz mövzu baxımından vacib olan bu tarixi mənzərədə - 1920-ci illərin əvvəllərində osmanlı dövləti belə bir vəziyyətdə idi (Akagündüz, 2018; Malkoç, 1954).

**Dövrün qısa tarixi müşahidəsi və qadın hərəkatlarının başlanması.**

XIX əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər davam edən inqilablar, savaşlar, təhsil üçün Avropaya göndərilən, dönən tələbələrin qərb üsullu məktəblərdə xidmətləri sayəsində yetişən gənclərin ölkəni xarici müqavimətlərdən qoruyarkən həlak olması, kişilərin sayını, ziyalı təbəqəni sürətlə azaldırdı. Beləcə, osmanlı qadını istər-istəməz ictimai-mədəni həyata atılmaq ehtiyacı duymuşdur (Yaraman, 1999: 44). Ədəbiyyatda, mədəni fəaliyyətlərdə ədiblərlə yanaşı ədibələrin daha çox təşəbbüskarlığı keçmiş maddi-mənəvi ənənələrin yaşadılması baxımından mühitə yeni ruh gətirirdi. Sual oluna bilər ki, xanım yazıcılar ədəbiyyata kişi yazıçılardan fərqli nə qazandırmışlar? Əvvəla, sayca az olan xanım yazıçılar dövrün hadisələrini, insanlıq faciələrini, xalqın vəziyyətini, fərdi və hissi yaşantılarını daha ətraflı və etinalı bir şəkildə qələmə almışlar. Əsərlərində, təbiri caizsə, ədəbi bir səliqə vardır. Daha sonra, qadının ictimai baxımdan sosial həyatdakı yeri və qadın mövzularına fərqli münasibət ədibələri digər yazıçılardan ayırır. Baxmayaraq ki, Tənzimatla birlikdə qadınlar əmək fəaliyyəti və təhsil haqlarından yararlana bilmişlər, lakin yenə də mühit hazır olmadığı üçün, aktif fəaliyyət göstərə bilmədikləri üçün daha çox ədəbiyyata – yazıcılığa yönəlmişlər. Türk qadınını bütün təzyiqlərə rəğmən, evindən çıxarıb işgüzarlığa sövq edən əsas səbəblərdən biri də Balkan müharibələri və I Dünya müharibəsi nəticəsində ölkənin çıxılmaz çətin vəziyyətə düşməsi olmuşdur. Osmanlı dövlətinin son dövrlərində Fatma Aliyə, Nəzihə Mühiddin kimi xanımlar cəmiyyətlər quraraq orduya ve dəniz donanmasına logistik dəstək vermişlər, şəhid uşaqları ve xanımlarını məslək sahibi etmək üçün peşə məktəbləri açmışlar (Şahin, 2013: 55). Ayrıca cəbhə arxasındakı köçgünlərin, əsgərlərin, yoxsulların geyim və qida ehtiyaclarını təmin etmək məqsədilə yardım kampanyaları təşkil etmiş, buradan toplanan yardımları ön cəbhəyə göndərmişlər.

Qadın yazıçıların müraciət etdikləri mövzular əsasən qadınların təhsili, iş həyatına qoşulmaları və bunun çətinlikləri, ictimai həyatda qadın kimliyi, ailə və məişətdə qadına olan münasibət, təzyiqlər və s. kimi qadınları maraqlandıran problemlər ətrafında qələmə alınırdı (Altınkaynak, 2007).

II Məşrutiyyət dövründə qadının sosiallaşma cəhdlərini və təşkilatlanma hərəkatlarını anlamaq üçün əsas örnək qadın dərgiləridir. Qadınlar ictimai və şəxsi istəklərini ilk dəfə mətbuat yolu ilə həyata keçirməyə müvəffəq olmuşlar. Bu dövrdə qadınların təşəbbüsü ilə çıxan qəzet və dərgilərin əsas gayəsi qadınların şüurunu oyandırmaq, gözünü açmaq, mümkün qədər cəmiyyətdə təsiredici mövqeyə sahib olmaq üçün qadınların səsini duyurmaqdır. Ayrıca eyni məqsədlə qadınlar dərnəklər və cəmiyyətlər qurararq burada aktiv rol almış, mühüm vəzifələri öhdələrinə götürmüş, toplantılar təşkil edərək məqsədlərini dilə gətirmişlər (Şahin, 2013: 53-72).

Əlbəttə, qərbdə çıxan mətbuat orqanları ilə türk qadını qərb qadınının həyat tərzi və dünyagörüşünü də mənimsəyirdi, qərbdəki qadın hərəkatlarından xəbərdar olurdu.

Osmanlıdan cümhuriyyətə keçid dövrlərində daha çox evlilik və onun bərabərindəki mövzular üzərində durulmuşdur. Ümumiyyətlə, qadın ziyalılar hər mövzuya həmcinslərinin nəzərindən, mövqeyindən baxaraq mövcud problemlərin həlli yollarını axtardıqları üçün, həm kişi yazıcılardan fərqli münasibətlərilə seçilmişlər, həm də cəmiyyətin ideologiyasında, psixologiyasında yeni görüşlərin təzahürünə yol açmışlar. “Türk kadınının 100 yıllık mücadelesi ve başta Nezihe Muhittin olmak üzere bu mücadeleye önderlik etmiş aydın ruhlu kadınların savaşımları, fedakârlıkları ve başarıları ve ödedikleri bedeller göz ardı edilmemelidir” (Zihnioğlu, 2003: 21).

Bəhs etdiyimiz dövrün xanım yazıcılarının hamısı bir osmanlı qadınıdır. “Osmanlı qadını” ifadəsi əsasən doğru düşüncəli, sağlam və qəti fikirli, şərəfli, tərbiyəli, oturub qalxmağı, nəyi harda və necə söyləməyi ədəbiylə bilən tədbirli, məlumatlı qadınlar üçün istifadə olunur. Bu mənada osmanlı kültüründə qadının yeri tarix boyu fərqli və üstün tutulmuşdur. Ayrıca, bu dövrdə qadın hərəkatlarının ilk başçılığını osmanlı dövlətinin ziyalı təbəqəsindən olan ailələrə mənsub təhsilli, qərb dünyasını bilən, Avropadakı yenilikçi hərəkatları mütəmadi təqib edən xanımlar yürütmüşlər (Özen, 1990: 14; Naci, 1940: 15-16).

Osmanlı cəmiyyətində baş qaldıran bu yeni qadın tipi nəticəsində osmanlı qadınının ictimai mövqeyi də müzakirə obyektinə çevrilmişdi. Ailəsində, yuvasında şəfqət, nəzakət və zərafətin

timsalı olan bu qadınlar qısa müddətdə cəmiyyətin də çox təsirli, yaradıcı və rəhbər şəxsiyyətlərinə çevrilirdilər. Hər addımda dövlətinin rifahını düşünən belə qadın ziyalılarımızı kişi ziyalılarımızın bəhsləri yanında kölgədə buraxmaq böyük qüsurdur.

Osmanlı ruhunu cümhuriyyətə götürərək yazılı ədəbiyyata yeni ruh bəxş edən modernləşmə dövrü ədibələrini aşağıdakı kimi sıralaya bilərik (Ayşe, 2021):

1) Fitnət xanım
2) Trabzonlu Fitnət (1842-1911)
3) Şərəf xanım (1809-1858)
4) Diyarbəkirli Sirri xanım (1814-1877_
5) Nəqiyyə xanım (1848-1898)
6) Mahşah xanım (1864-1902)
7) Leyla xanım (1850-1936)
8) Nigar xanım (1856-1918)
9) Məqbulə Ləman xanım (1865-1898)
10) İhsan Raif xanım (1897-1926)
11) Yaşar Nəzihə xanım (1880-1943) və b.

Bu xanımların hamısı osmanlı modernləşmə prosesində yaxından iştrak etmiş, ölkənin dirənməsi, həmcinslərinin ictimai hüquqa tabe tutulması, rəsmi dairələrdə kişilərlə eyni səviyyədə yer alması üçün fərd olaraq gizli-açıq mübarizə aparmışlar (Şenol Cantek, 2011: 34-35).

Mustafa Kamal Atatürkün qurduğu cümhuriyyətdə ilk dəfə 3 mart 1924 tarixli Tövhidi-tədrisat qanunu ilə qadınlar təhsildə kişilərlə eyni hüquqa sahib oldular. 1926-cı ildə qəbul edilən Mülki Məcəllə ilə kişilərin çoxarvadlılığı və birtərəfli boşanması ilə bağlı qaydalar ləğv edildi. Ailədə və ictimai həyatda qadın və kişi bərabərliyinin əsasları qoyuldu. Türk Mülki Məcəlləsi ilə türk qadınları güclənməyə, şəxsiyyətlərini tapmağa, kişiləri ilə bərabər ictimai fəaliyyətlərdə iştirak etməyə başladılar. Beləliklə, qadınlara ictimai həyatda verilən bərabərlik tezliklə özünü hiss etdirdi: bütün növ peşə sahələrinə maraq göstərən qadınların uğurlu fəaliyyəti nəticələrini verdi. Onların bəziləri yazıçı, bəziləri isə bəstəkar, jurnalist, pedaqoq kimi cəmiyyətdə özünü təsdiq etdi. Burada mühüm məqam ondan ibarətdir ki, bəzi tədqiqatçılar cümhuriyyətin ilk qurulduğu dövrlərdəki qadın hərəkatlarından bəhs edərkən "cümhuriyyətin qızları" və "çox şeyə düşüncəsi yetməyən hərəm qadını" ifadələrini üzləşdirir və birincinin digərinə üstünlüyünü vurğulayaraq, osmanlıdan cümhuriyyətə keçid dövründəki qadın hərəkatlarını qaralayaraq münasibət formalaşdırırlar. Guya bir qrup İstanbul qadınları cümhuriyyəti və onun islahatlarını sevməmişlər. Halbuki o qadınlar məhz keçid dövrundə maariflənmə ideologiyasının, qadınların hüquqlarını müdafiə edən ictimai-mədəni cərəyanların bilavasitə daşıyıcıları olmuşlar. Misal üçün, osmanlı dövlətinin son dövrlərində qadını siyasi-ictimai həyata cəlb etmək üçün Qadınlar Xalq Firqəsi (QXF) adlı ilk siyasi qadın partiyasını quran, saymaqla bitməyən ilk təşəbbüslərə imza atan İstanbul doğumlu bir osmanlı xanıməfəndisi Nəzihə Mühiddin Təpədələngilin həyatı və fəaliyyəti buna gözəl cavab ola bilər (Balcı, 2017: 46). Digər tərəfdən, cümhuriyyət qurulana qədər əsasən qadınlar tərəfindən qırxa yaxın qadın qəzet və dərgiləri nəşr etdirilmişdi. Bu nəşrlər qadınların bir şəxsiyyət kimi özlərini, problemlərini və tələblərini ifadə etmək, gündəmə gətirmək üçün önəmli bir vasitəyə çevrilmişdi. Bu mədəni cərəyanda bəzi yazıçı və şairlər qadın hüquqlarının problemlərini üzə çıxarıb izah etmişlər. Bəzi insanlar hədəflərinin mənbəyi kimi qadınları görüb onlara üz tutmuşlar. Bəzi qələm sahibləri tərəfindən xüsusi və mühüm bir varlıq kimi qəbul edilən qadın və qadınlıq məsələləri yazıçıları qadınlarla məşğul olmağa sövq etmişdir. Beləliklə, hər bir maarifpərvər qadın yazıçı öz həmcinslərini yenidən cəmiyyətə inteqrasiya etməyi qarşısına məqsəd qoymuşdu. Xüsusilə Tənzimat şair və yazıçılarının öncül olduqları bu məsələ cümhuriyyət dövrünə qədər gəlmiş, roman və hekayələrdə öz əksini tapmışdır (Önberk, 1997: 257). Bütün bunlar tarixi-mədəni hadisə kimi osmanlıdan cümhuriyyətə keçid dövründə baş vermişdi.

Yuxarıda deyilənlərə əlavə olaraq, sözügedən son dövrdə osmanlı qadınlarının təsiredici olduğu müxtəlif dərnək və cəmiyyətlər əsasən bunlardır: Donanma Müavinəyi-Milliyə Cəmiyyəti Xanımlar Şöbəsi, Məmulati-Daxiliyyə Qadın Cəmiyyəti-Xeyriyəsi, Təaliyi-Vətəni-Osmani Xanımlar

Cəmiyyəti, Osmanlı Hilali-Əhmər Cəmiyyəti Xanımlar təşkilatı, Qadınları Çalıştırma Cəmiyyəti-İslamiyyəsi. Bu birliklərin çoxu cümhuriyyətə qədər səsini çıxara bilməmiş, dövrün şərtlərinə görə maddi dəstəksiz qalmış, qısaömürlü olmuşlar. Qadın cəmiyyətlərinin ilk təşəbbüskarı Fatma Aliyyə xanımdır ki, türk əsgərlərinə yardım göndərmək üçün Cəmiyyəti-İmdadiyyəni qurmuşdu. Daha sonra Xalidə Ədib tərəfindən qurulan "Təali Nisvan Cəmiyyəti qadın araşdırmalarına öz töhfəsini vermişdi. Qadınlar üçün özünü ifadə etmək, səsini eşitdirmək asan olmamışdır. Dərrakəsinin və qabiliyyətinin gücünə inansalar da, qadınlar hər təşəbbüsdə alçaldılmaqdan, kənarlaşdırılmaqdan, onu mühakimə edən tənqidi münasibətdən çəkinmişlər. Buna görə də, rəhbər şəxsə həmişə ehtiyac duymuşlar. Adı çəkilən cəmiyyətlərin qurulması qadınların səsinə, özünəinamına mənəvi dəstək olmuşdur. Amma unutmaq olmaz ki, qadınların ictimai həyata atılma prosesi Tənzimatdan cümhuriyyətə qədər olan ilk dövrdə kişilər tərəfindən idarəli şəkildə və onların nəzarəti altında, qoyulan məhdudiyyətlər çərçivəsində həyata keçirilmişdir. Osmanlı dövründə qadınlıq şüurunu bərqərar etməyə çalışan qadınların istəyi ilk növbədə kişilərin açdığı yolla getmək və şəxsi azadlıqlarını qazanmaq idi (Uğurlu, 2015: 129; Zihnioğlu, 2003: 45). Bundan əlavə qadınların tələbləri belə idi ki, kişilər kimi ailənin bir üzvü olaraq işləməli, həkim, məmur, fəhlə, mühəndis, müəllim, millət vəkili kimi peşələrə sahib olmalıdırlar. Bütün bu istəkləri nəzərə alaraq, 1895-ci ildə tamamilə qadınlara aid "Xanımlara məxsus qəzet" işıq üzü gördü. Qəzetdə qadınların heç bir hüququnun olmadığı, arxa planda buraxılıb heç bir dəyər verilmədiyi qeyd olunurdu. Osmanlıda qadın hərəkatı uzunömürlü olmasa da, yuxarıda qeyd edilən cəmiyyətlərin qurulması və məhdud da olsa, cəsur mətbu çıxışlar cümhuriyyət dövründə qadınlar üçün yeniliklərin əsasını təşkil etdi. Başqa sözlə desək, Tənzimat dövründən cümhuriyyətə qədər ictimai-siyasi-iqtisadi həyatda baş verən dəyişiklik və inkişafın davamında qadınların ictimai həyata və iş həyatına daxil olma səyləri ilə formalaşan qadın təşəbbüsləri və bu sahədə önə çıxan qadınların vəziyyəti, əslində Türkiyədə modern qadın şəxsiyyətinin formalaşmasında mühüm rol oynadı (Hamzaoğlu, 2018).

Cümhuriyyət tarixçisi Afət İnan "Tarih Boyunca Türk Kadınlarının Hak ve Görevleri" başlıqlı məqaləsində (İnan, 1969) osmanlıdan cümhuriyyətə qədərki qadın qəzet və dərgilərini belə sıralayır:

1. Kadın (1909)
2. Mehasin (1908)
3. Kadın Bahçesi (1912)
4. Kadınlar Dünyası (1912)
5. Kadın Hayatı (1912)
6. Kadın Duygusu (1913)
7. Kadınlar Alemi (1913)
8. Kadın kalbi (1919)
9. Süs (1923)

Bu qəzet və dərgilərdə adını duyuran ədibələr arasında Xalidə Ədib Adıvar, Nəzihə Mühiddin Təpədələngil, Kərimə Nadir Əzraq, Suad Dərviş, Şükufə Nihal Başar, Leyla Saz, Semiha Ayverdi, Mükərrəm Kamil Su, Səfiyyə Erol, Məbrurə Sami Alevok, Güzidə Səbri Aygün, Müfidə Fərid Tək kimi daha neçə xanım şəxsiyyətlər vardır. Onlar sonralar cümhuriyyət dövrü türk ədəbiyyatının da qabaqcıl ədibələri olmuş, varislərinə mənalı ömür yolları ilə işıqlı örnək izlər buraxmışlar (Çaha, 1996: 10).

**Cümhuriyyəti maarifləndirən osmanlı ruhlu türk ədibələri.**

Yuxarıda adlarını çəkdiyimiz qəzet və dərgilərdə nəşr olunan ədibələrin arasından 1800-cü illərdə doğulmuş, büluğ yaşlarında osmanlının çöküşünü, o dövrün təzyiqlərini, çətinliklərini görüb yaşamış, hadisələri əsərlərində birəbir inikas etdirən, osmanlı ruhuyla cümhuriyyətə ədəbi körpü yaradan, lakin unudulmaqda olan xanım yazıçılardan bəziləri haqqında az-çox bəhs etmək istəyirik.

**Nəzihə Mühiddin Təpədələngil (1889-1958):** "Tarixin tanımazlıqdan gəldiyi qadın" (Zihnioğlu, 2003; Şükufe, 2001: 773) kimi dəyərləndirilən bu xanım XX əsrdə Osmanlı İmperatorluğunda qadınların ictimai həyata daxil olması və cümhuriyyət rejiminin elan edilməsindən sonra qadınların siyasi hüquqlarının tanınmasını təmin etmək üçün mübarizə aparan

qadın hərəkatının öncüllərindəndir. 1889-cu ildə İstanbulun Qəndilli şəhərində varlı, savadlı, nüfuzlu ailədə anadan olan Nəzihənin təhsili bir müddət müxtəlif məktəblərdə yer dəyişdirməklə başlasa da, qənaətbəxş saymadığı təhsil sistemindən uzaqlaşaraq 1909-cu ilə qədər evdə dövrün ən yaxşı müəllimlərindən aldığı dərslərlə davam etmişdir. Nəzihə kiçik yaşlarından qərb və şərq dillərini, ədəbiyyatını öyrənmiş, müxtəlif idman növlərinə həvəs göstərmiş, təhsilli tərbiyəçiləri sayəsində cəsur, çalışqan bir qız kimi yetişmişdi. 8 yaşından başlayaraq anası ilə tez-tez qadın toplantılarına və fəaliyyətlərinə qoşularaq ədəbiyyat və sosial problemlərlə bağlı söhbətlərdə iştirak etmiş, buradakı xanımları cahil və mühafizəkar çoxluğa yol göstərəcək maariflənmiş azlıq olaraq yaddaşında yaşatmış, onlara bənzəmək istəmişdi. Anasının görüşdüyü xanımların arasından Nəqiyyə xanım və Qıbrıslızadə Əzizə xanım Nəzihənin dünyagörüşündə dərin izlər buraxmış, sonrakı fəaliyyətlərində onların vətənpərvər, yenilikçi məziyyətlərini özündə davam və inkişaf etdirməyə çalışmışdı (Çakı, Doğan, 2018: 66-81).

İş həyatına illərlə xəyalını qurduğu müəllimliklə başlayan Nəzihə Mühiddin qısa bir vaxtda təhsil şöbəsinə qız tələbələrin tədrisi ilə bağlı hesabat hazırlayır, Avropadakı fənlərin türk məktəblərində də tədris proqramlarına daxil edilməsini tələb edir. Onun üçün müəllimlik peşəsi təkcə iş həyatına atılan addım deyil, həm də biliklərini ictimaiyyətlə, xüsusən də qadınlar və qızlarla bölüşmək imkanıdır. Düşünən nurani qadınlar olaraq xarakterizə etdiyi Osmanlı qadınlarının azadlığı və rifahı üçün əlindən gələni əsirgəməyən Nəzihə tezliklə təlim-tərbiyə sahəsində cəmiyyətin qadın təbəqəsinin ehtiyacı olan hər mövzuda məqalələr yazıb “Sabah” və İqdam” qəzetlərində nəşr etdirir, müxtəlif kurslarda sosiologiya, təhsil, müəllimlik peşəsində islahatlar mövzusunda dərslər verir, dəvət edildiyi məclislərdə məruzəçi kimi iştirak edir. Yüksək mədəniyyət və analitik qabiliyyət sahibi Nəzihə Mühiddin uşaqlıqdan əldə etdiyi bilikləri, zəngin müşahidələri ədəbi əsərlərinə də köçürür, 1911-ci ildə ilk romanını (“Şebabi- tebah” və ya ikinci adı “Kaybolan gençlik”) qələmə alır, daha çox ictimai mövzularda yazdığı əsərlərilə digərlərindən fərqlənir (Çakır, 2013: 59-116). Sağlamlıq, siyasət, təhsil və əxlaqi mövzularda fikirlərini ifadə edən ədəbi əsərləri və məqalələri ilə tezliklə İstanbul ətrafında tanınır. Əsərlərində “Nezihe Muhlis” imzasından istifadə edərək 20 roman, 300-ə yaxın hekayə, 8 tərcümə əsəri, 1 pyes, ssenari və operetta yazmışdır. Nəzihə Mühiddinin əsərlərində qadın obrazları öz küskünlük və intiqamlarını ifadə etmək, eləcə də köləlik və cariyəlik təfəkkürünə qarşı üsyan etmək məqsədilə yaradılmış fəal obrazlardır. Müəllif intim hisslərin əsiri və qurbanı deyil, duyğularına, həyəcanlarına hakim qadın obrazlarını didaktik dillə danışdırır, onların vasitəsilə öz feminist dünyagörüşünü bəyan edir, bəzən mühafizəkar, bəzən modern düşüncəli cəsur obrazlarla dövrünün istibdadına cavablar verir. Əsərlərinin adı məzmun və ideyadan xəbər verir: “Benliğim benimdir” (1929), “Türk kadını” (1931), “Güzellik kraliçesi” (1933), “Bozkurt” (1934), “Avare kadın” (1943), “Çıplak model” (1943), “Kalbim senindir” (1943), “Sus kalbim sus” (1944) ve s (Dik, 2012).

Müəllimlik illərində başlayan Balkan müharibələri zamanı işlədiyi məktəbi tikiş evinə çevirərək xəstəxanalar üçün lazım olan əşyaların tikilməsini təmin edir, tələbələri ilə birlikdə xəstəxanada baxıcı, tibb bacısı işləyir. Bu tarixi hadisədən sonra qadın və uşaqların acınacaqlı vəziyyəti üçün açıq mübarizəyə girişən Nəzihə xanım Cəmiyyəti-İmdadiyyə (Rumeli sərhədlərində döyüşən əsgərlərin gündəlik məişət ehtiyaclarını təmin etmək üçün işlər aparan quruluş), Donanma Müavinəyi-Milliyə Cəmiyyəti Xanımlar Şöbəsi (türk dəniz qüvvələrinə maddi gəlir təmin edən quruluş), Təaliyi-Nisvan Cəmiyyəti (qadınların yüksəlməsi üçün quruluş), Osmanlı Müdafiəyi-Hüquqi-Nisvan Cəmiyyəti (Osmanlı qadın haqlarını müdafiə quruluşu) kimi dövrün çox mühüm təşkilatlarında qurucu sima olaraq yer alır. Ayrıca mədəniyyət, siyasət və qadın mübarizələrini gündəmə gətirən “Qadın yolu” adlı jurnalın yaradılmasına öncülük edir. Əlbəttə, bu fəaliyyətləri əsnasında özü kimi maarifpərvər Xalidə Ədib, Fatma Aliyə, Nemət Rəmidə, Lətifə Bəkir, Mətlubə Ömər, Nəsimə İbrahim, Sabiha Zəkəriyyə, Şükufə Nihal xanım ziyalılar və bir çoxları ilə tanış olur, birlikdə konfrans və seminarlar təşkil edirlər. Nəzihə xanımın toplantılardakı çıxışlarında əsas qayə qadınların özünü əvvəla bir yaradılış olaraq tanıması, daha sonra cəmiyyətin bir parçası olduğunu unutmayaraq haqlarını tələb və müdafiə etməsi idi. Bu görüş sonralar “Qadınlar Birliyi Dərnəyi”nin manifestində də əksini tapmışdı: “Biz Türk kadınları toplumsal ve siyasal yaşamda hak ettiğimiz

yeri almalıyız. Önce Türk kadınlarını bilinçlendirmeli ve eğitmeliyiz. Onlara daha fazla şey istemelerini ve bunlara nasıl ulaşacaklarını anlatmalıyız. Amacımız kadın ve erkeğin toplumsal ekonomik ve siyasal eşitliğidir" (22).

Nəzihə Muhiddinin konstitusiya monarxiyasından tutmuş qız məktəblərindəki işinə qədər bütün səyləri türk qadınlarının tam vətəndaş səviyyəsinə yüksəlməsi, seçmək və seçilmək haqqına sahib siyasi mövqeyini gücləndirmək istiqamətində olmuşdur. Hələ Cümhuriyyət Xalq Partiyası yaranmamışdan əvvəl o, Qadınlar Xalq Firqəsi (KHF) adlı siyasi partiyanın qurulmasını tamamlamış, beləcə Türkiyədə bir qadın ziyalı tərəfindən qurulan ilk siyasi partiyanına lideri kimi tarixə düşmüşdür. Qadınlar Xalq Firqəsinin məramını açıqlayan nitqinin sonunda Nəzihə xanım belə deyirdi: "Cumhuriyet yürüyecek ve kadınlık hayatına daha birçok ışıklar serpecektir. Siyasal hakkımızın verildiğini kutlayacağımız gün uzak değildir" (Ötüş, Baykan, 1999: 149).

Nəhayət, uşaqlıqdan başlayaraq ömrünün sonuna qədərki həyatında qadın haqları üçün qorxmadan, yorulmadan, minnətdarlıq ummadan mübarizə aparmış Nəzihə Mühiddinin əməlləri dövrünün bəzi siyasətçiləri, yüksək təbəqəli insanları, əsasən də kişi qaragüruhçuları tərəfindən əngəllərə məruz qalmış, şər-böhtanla qadınlığı və şəxsiyyəti bir cani kimi ləkələnməyə çalışılmışdır. Təəssüf ki, Nəzihə Mühiddinin ömrü 10 fevral 1958-ci il İstanbulda bir dəlixanada başa çatmışdır (Gülcü, Tunç, 2012: 170).

**Şükufə Nihal Başar (1896-1973):** "Ölümü görmek üçün yaşayan qadın" kimi dəyərləndirilən, osmanlı ruhunu Cümhuriyyətdə yaşadan bu edibemiz milli mübarizə dövründə iştirak etmiş, qadın hüquqları, qadın azadlığı, qadın hərəkatları üçün var gücü ilə səylər göstərmiş, bu yolda öz bədbəxtliyini gözə almışdır. Buna görə də öz inqilabi ruhu, yenilikçi görüşləri, vətən eşqi və ölkəsinə xidmət etmək əzmilə örnək olan önəmli qadın simalarından biridir. Şükufə Nihalı liderlik ruhuna malik əsilzadə osmanlı qadını olaraq bütün Türkiyəyə tanıdan hadisə 1919-cu ildə yunan işğalına qarşı İstanbulda keçirilən Sultan Əhməd mitinqindəki coşğulu və təsirli çıxışı olmuşdu: "Müslümanlar, Türkler! Türk ve Müslüman bugün en kara gününü yaşıyor. Gece, karanlık bir gece… Fakat insanın hayatında sabahı olmayan gece yoktur. Yarın bu korkunç geceyi yırtıp, parlak bir sabah yaratacağız. Bugün elimizde top, tüfek denilen alet yok; fakat ondan büyük, ondan kuvvetli bir silahımız var; Hak var, Allah var. Tüfek ve top düşer, Hak ve Allah bakidir. Topunun yüzüne tükürecek kadar, evlatlar, analar, kalbimizde aşk ve iman, milliyet duygusu var. …Ey aziz vatan beşiğimiz sendin, mezarımız yine sen olacaksın" (Kurnaz, 1992: 151).

Şükufə xanım ölkəsinin Balkan müharibələri ilə birlikdə böhranlı günlər yaşadığı dövrdə - 1896-cı ildə İstanbulun Yeniköy səmtində ata və ana tərəfindən osmanlı padşahlarına bağlı köklü nəsildən gələn hərbçi ailəsində doğulmuş, atasının xidmətləri səbəbilə müxtəlif yerlərdə yaşamış, harada olursa olsun mütləq təhsilini davam etdirmiş, atasının siyasi məzmunlu yığıncaqlarında iştirak etmiş, tam mənası ilə təlim-tərbiyəli xanıməfəndi kimi yetişmişdi. Dövrün tanınmış ziyalıları Cənab Şəhabəddin və kişik qardaşı Osman Fəxridən evdə aldığı xüsusi dərslər sayəsində gənc Şükufə türk, ərəb, fars dillərinin ədəbi məziyyətlərini dərindən öyrənmiş, sənət anlayışını zənginləşdirmişdi. 1919-cu ildə İstanbul Darülfünunun Ədəbiyyat fakültəsinin Coğrafiya şöbəsini bitirərək "Türkiyənin ilk universitet məzunu qadını" adını almışdır. Bundan başqa, ilk türk müəllimələrindən sayılan Şükufə Nihal daha çox təlim-tərbiyə peşəsi üzrə müxtəlif tədris ocaqlarında işləmiş, qız məktəblərinin açılmasında, "Türk Qadınlar Birliyi"nin qurulmasında, qadın dərnəklərinin fəaliyyətlərində yaxından iştirak etmişdir (Müəllif, 1940: 15; Toprak, 1923-1935: 6). Şükufə Nihal dövrünün eyni milli məfkurə uğruna mübarizə aparan xanımları Xalidə Ədib, Meliha Avni, İffət Halim, Nəzihə Mühiddin, Ülviyyə Mevlan və bir çoxları ilə yoldaş idi.

Bilavasitə atasının həvəsləndirməsi və istiqamətləndirməsi ilə ədəbiyyata erkən yaşlarında başlayan Şükufə Nihal dövrün bəzi qəzet və dərgilərində (Varlık, Güneş, Aydabir, Çınaraltı, Şadırvan, İttihat) şeir və məqalələri ilə çıxış etmişdi. Buradakı şeirlərində lirizm və feminist məzmun diqqətçəkicidir. Məqalələrində isə Anadolu qadınının savadlanması, evlilik məsələləri, cəmiyyətin gələcəyi olan uşaqların tərbiyəsində anaların məsuliyyəti, vəzifələri, sosial imkanları, iş həyatına haqq qazanmaları, seçki hüququ və s. kimi mövzular ələ alınmışdır. Şükufə xanımın ədəbi

əsərlərinin əsas obrazları qadınlardır. Həyatı boyu yaşadığı hüzün və kədərləri, mübarizəsinin əngəllərini – bütün dərdlərini ədəbiyyatla dilə gətirmişdir (Burus, 2017; Argunşah, 2011).

Bir neçə uğursuz ailə həyatı yaşamış Şükufə Nihal görkəmi və qadın şəxsiyyəti ilə tanınmış türk şairləri Nazim Hikmətin, Faruq Nafız Çamlıbelin, Əhməd Qutsi Tecərin, Osman Fəxrinin aşiq olduğu, yolunda nəzmlər düzülən, şərqilər bəstələnən cazibədar xanımdır. Bu aşiqlərini romanlarına obraz olaraq gətirmişdir. "Yaqut qayalar", "Yalnız Dönüyorum" əsərləri beləlirindəndir. Əlbəttə, aşiqləri arasında sadəcə Osman Fəxrinin məhəbbəti Şükufə xanımın qəlbinin dərinliklərinə işləmiş, ömrü boyu qovuşmadığı bu sevgisini unutmadan yaşamış, Osman Fəxri də imkansız eşqi üzündən 30 yaşında intihar edərək həyatına son vermişdi (Argunşah, 2011).

Şükufə Nihal yaradıcılığa başladığı ilk dövrlərdə sərvəti-fünuncuların öndər şairi Tofiq Fikrətin təsirində qalaraq əruz vəzniylə şeirlər yazmış, daha sonra xalq ruhuna yaxınlaşaraq heca vəznli şeirlərilə milli duyğuları tərənnüm etmiş, romantik üslubla xalqı, vətəni haqqında böyük ümidlərini dilə gətirmişdi. Demək olar ki, bütün şeirlərində vətənpərvərlik, məhəbbət, qadın problemlərindən paralel bəhs açılmışdır. Heca vəzni ilə yazılmış şeirlərin toplandığı "Hazan Rüzgârları" (1926) adlı kitabında ədibəmizin saf və sadə türkcəsi aşkar hiss edilir. Bütün əsərlərində Şükufənin daxili məni obrazlarında gizlənmişdir. Romanlarını yazarkən tez-tez məktublar, gündəliklər kimi nəqletmə, təhkiyə üsullarına müraciət edirdi. Bu ədəbi üsulla dövrün ədəbiyyatına bir yenilik və təhkiyə təbiiliyi gətirmişdi Şükufə Nihal. Qadınları yazmağa təşviq edən və "qadın həssaslığını" bütün yönlərilə təmsil və təbliğ edən dövrünün ən yaxşı sənətkarlarından idi. Bəzi əsərlərinin adları belədir: kitabları - Yıldızlar ve Gölgeler (1919), Hazan Rüzgarları (1927), Gayya (1930), Su (1933), Şile Yolları (1935), Sabah Kuşları (1943), Yerden Göğe (1960); romanları - Renksiz Istırap (1926), Yakut Kayalar (1931), Çöl Güneşi (1934), Yalnız Dönüyorum (1938), Domaniç Dağlarının Yolcusu (1946), Çölde Sabah Oluyor (1951); səyahət qeydlərindən ibarət Finlandiya (1935) yazısı (Argunşah, 2011).

Bir sözlə, Şükufə Nihal türk ədəbiyyatının ən duyğulu, ən ürək dolusu, ən kədərli ədibəsi, eyni zamanda tarix səhifələrinin kölgədə qalmış portretlərindəndir. Həmçinin Atatürk ziyafətlərinin unudulmaz qonağı və hürriyyət eşqiylə çırpınan, mübariz bir qadındır. Onun sevilən şeirlərindən sadəcə bir bəndi burada təqdim etmək istəyirik:

Bir çölde biten dal gibi ıssızsa da ruhum,
Dost âleminin ettiği kem söz neme yetmez?
Vardır anacak bir gün anıp ismimi elbet,
Bir servinin altında dolan göz neme yetmez? (Özkan, Durbaş, 2002)

Təəssüf ki, qadın azadlığının müdafiəçisi belə bir zərif xanım maşın qəzasında şikəst olur, sonra qızı vəfat edir, dostları ondan uzaqlaşmağa başlayır, nəticədə Şükufə Nihal 1965-ci ildə İstanbulda bir qocalar evinə köçərək yalqızlıq və yaşlılıq illərinin susqunluğuna bürünür və 1973-cü ildə fani dünyaya vida edir.

**Leyla (Saz) xanım (1850-1936): "**Klassik türk musiqisinin xanıməfəndisi" olaraq dəyərləndirilən Leyla Saz tənzimat, məşrutiyyət (Əbdülməcid, Əbdüləziz, V Murad, II Əbdülhəmid, Mehmet Rəşad, Vəhdəddin xan dövrləri) və cümhuriyyət dövrlərini görüb-yaşamış ədibələrdəndir. Yaşadığı dövrlərin mədəni təkamülünü əsərlərində inikas etdirən, xatirələrini yazıb mətbu əsərə çevirən ilk müsəlman qadın yazıçı Leyla Saz Osmanlı İmperiyasının Dilhəyat Kalfadan sonra ikinci ən böyük qadın bəstəkarıdır. Ədəbi fəaliyyətinə görə Leyla xanım Sultan II Əbdülhəmid xan tərəfindən sadəcə qadınlara verilən "Şəfqət nişanı" ilə təltifləndirilmişdir (Beşiroğlu, 2006: 13).

1850-ci ildə sarayda osmanlı həkimlərindən İsmayıl Həqqi Paşanın qızı olaraq dünyaya gələn Leyla xanım burada sultanların uşaqları – şahzadələrlə birlikdə təhsil almış, onlarla yaxın dostluq münasibətləri qurmuş, hətta Əbdülməcid xanın qızı Münirə Sultanın nədiməsi olmuşdur. Sarayın səsli-küylü, çalğılı-nəşəli mühiti anasının laylası ilə birlikdə Leyla xanımın ruhuna işləmiş, mühit onu erkən yaşlarından ədəbiyyata sövq etmiş, ilk şeirini 14 yaşında yazmışsa da, bəstəkarlıq qabiliyyəti daha çox üzə çıxmışdır. Giritli Qütbi əfəndidən osmanlı şeiri və əruz dərslərini alaraq

ərəb-fars dillərini dərindən mənimsəmiş, ayrıca fransızca və rumca da yazıb-oxumağı, səlis danışmağı öyrənmiş, Mədəni Əziz əfəndidən klassik türk musiqisi dərslərini almış, qərb və şərq musiqisinin sirlərinə bələd olmuş, bütün bu təlimlər onun sənətkarlığını yüksək səviyyədə yetişdirmişdir (Özcan, 1979: 158). Leyla xanım bəstələdiyi şərqilərin güftəsini (sözlərini – A.B.) də özü yazırdı. Zərafəti və əzmi ilə dövrünün xanımlarına örnək olmuşdur. Leyla xanımın yaşadığı dövrdə qadın məclislərində çəng, qanun, bendir, dairə, dəf, qopuz, Xorasan tənburu, rübab, kamança və ney kimi alətlərdən istifadə edildiyi mənbələrdə qeyd olunmuşdur (Beşiroğlu, 2006: 8-9). Lakin bu dövrün qadınları sərbəst təhkiyəçilikdə tam mənası ilə azad olmadığı üçün öz həyatından bəhs açmaq, xüsusən də şəxsi həyatın məhrəm təfərrüatlarına toxunmaq xoş qarşılanmırdı. Ona görə də, dövrünün digər qadınları kimi Leyla xanım da mənliyin arxa planda qaldığı üstüörtülü məzmunlara üstünlük verirdi. Beləliklə, Leyla xanım dövrün qadınlarının səsinə çevrilərək qadın mövzularına rəhbərlik edir, cəsarətli münasibəti ilə yaddaşlara həkk olunurdu.

Leyla xanım dövrün padşahları II Mahmud və I Əbdülməcid xanın qızlarına Bahariyyə qəsidəsini hədiyyə etmişdir. Üstəlik, Sultan Mahmudun qızları Atiyyə Sultan, Münirə Sultan və Fatma Sultanın doğumları, şahzadələr Əbdülməcid və Əbdüləzizin sünnətləri, Əbdülməcid xanın taxta oturma mərasimilə bağlı tarixi şeirlər yazmışdır. 19 yaşında şair, xəttat və dövlət adamı Giritli Səlim Sırrı əfəndi ilə evlənən Leyla xanım yoldaşının dövlət təyinatları səbəbilə ölkəsinin bir çox yerlərini gəzib dolaşır, musiqi zövqünü təkmilləşdirir, 26 illik ailə həyatı yoldaşının xəyanəti nəticəsində bitir (Özcan, Leyla, 1979: 158).

Bundan sonrakı həyatında Leyla xanım əzmkar və mübariz tövrlərilə müxtəlif qəzet və dərgilərin səhifələrində qadın haqqlarını müdafiə edən yazılar çap etdirir. Çağdaşı Fitnət xanımla birlikdə dövrün ilk açıq imzalı ədibələrindən olur. Leyla xanımın osmanlı hərəmxana həyatını və imperatorluğun son dövründə qadınların həyatını təsvir edən xatirələri müxtəlif dillərə tərcümə edilərək diqqət çəkmişdir. Divan ənənəsi ilə qələmə aldığı şeirlərində dayısı Keçəcizadə İzzət Mollanın, Şeyx Qalibin ədəbi təsiri hiss olunur. Bu şeirlərin toplu hissəsi ilk dəfə 1928-ci ildə "Solmuş çiçəklər" adı ilə nəşr edilmiş, məşhur şair Əbdülhak Hamit Tarhan əsərə yazdığı ön sözündə Leyla Sazın ədəbi üslubunu və mövzularını yüksək qiymətləndirmişdir (Demir, 2000). Leyla xanım, həm də bir peyğəmbər aşiqidir. Onun Həzrət Məhəmməd əleyhissəlamı mədh edən zərif qələminə məxsus nətləri məşhurdur və bəstələri sevilərək oxunur. Klassik osmanlı şeirləri ilə yanaşı, sadələşdirilmiş türkcə ilə yazdığı şeirlər də Leyla xanımın köklü və güclü sənətkarlığa malik olduğunu göstərir. Bəzi şeirlərinin ilk misraları belədir: "Seni sevda çiçeğim, tac-ı serim" (hicaz), "Nerdesin, nerde acep, gamla bıraktın beni" (hicazkar), "Mâni oluyor halimi takrire hicabım" (hicazkar), "Ey sabah-ı hüs-i anın aftab-ı enveri" (hüzzam), "Harab-ı intizar oldum, aman gel" (hüzzam), "Etmedim asla terahhum pek çok üzdün" (mahur), "Dilberim terk-i sebata her zaman amadedir" (sultaniyyəgah) kimi musiqilərin bəstəkarıdır (Özcan, Leyla, 1979). Xüsusilə, "Ağdəniz marşı" məşhurdur:

Yaslı gittim, şen geldim;
Aç koynunu ben geldim.
Bana bir yudum su ver,
Çok uzak yoldan geldim.

Korkma açıl şen yurdum,
Dağlara ordu kurdum;
Açık denizlerine
Süngümle kilit vurdum (Demir, 2000).

Leyla xanım mahnılarında klassik türk musiqisinin 18 məqam (muğam – A.B.) və 9 üsulunu (ritm – A.B.) yüksək duyumluluğu ilə istifadə etmiş, şeir və musiqini bütünləşdirən qiymətli əsərlər ortaya qoymuşdur. Leyla xanım öz şeirlərindən başqa Nabizadə Nazım, Süleyman Nazif, Yaşar

Şadi, Rəcaizadə Mahmud Əkrəm və Nigar xanım kimi dövrünün tanınmış şairlerinin şeirlərinə də musiqi bəstələmişdir (Yazıcıoğlu, 2011: 59).

Leyla xanım, saray mühitini və adət-ənənələrini təsvir edən "Hərəm və Saray Adatı Kadiməsi" adlı xatirələri ilə də məşhurdur. Bu xatirələr ilk dəfə 1920-1922-ci illərdə "Vakit" qəzetində "Hərəmi- Hümayun və Sultan Sarayları" adı ilə, daha sonra isə 1974-cü ildə "Hərəmin İçyüzü" adı ilə kitab şəklində nəşr edilmişdir. Ömrünün ixtiyar çağlarında Leyla xanm faciəvi bir hadisə nəticəsində əsərlərinin ən böyük hissəsini itirir: XX əsrin əvvəllərində İstanbulun işğalı zamanı yaşadığı evi, bağ-baxçası, əsərləri yanıb kül olur. Bəzi əsərlərini yaddaşı sayəsində bərpa etsə də, dövrün qadın dərgilərində nəşr edilmiş şeirlər, oğlunun evində mühafizə olunmuş əsərlərilə birlikdə Leyla xanımın 50-yə yaxın əsəri günümüzə qədər gəlib çatmışdır. Türk ədəbiyyatının və incəsənətinin ən yaşlı xanım yazıcısı olaraq Leyla Saz sarayda yetişməsinə rəğmən, xalq mahnıları tərzində bəstələrilə könüllərdə hörmət qazana bilmişdi. Qadınların savadlanması, mübarizəsi, cəmiyyətin aparıcı simasına çevrilməsi yolunda öz şəxsiyyəti və əməllərilə ilə bütün türk qadınlarına nümunə ola bilmişdi (Kaplan, 1988: 141).

**Müfidə Fərid Tək (1892-1971):** "Parisi özünə heyran buraxan türk xanıməfəndisi" kimi dəyərləndirilən Müfidə Fərid xanım türkçülük hərəkatının roman janrında ilk təmsilçilərindəndir. Türkiyənin ilk daxili işlər naziri Əhməd Fərid Təkin həyat yoldaşı, sənət tarixçisi Emel Esinin anasıdır. Bundan başqa, Müfidə xanımın bacısı Səma xanım məşhur yazıçı Yusuf Akçuranın həyat yoldaşıdır (Kaymaz, 2010: 336).

Müfidə Fərid 1892-ci ildə Kastamonuda hərbçi ailəsində doğulmuşdur. Atası Ərzincanlı Məzhər Paşanın oğlu Şövkət bəy, anası Plevnə şəhidlərindən Zaimzadə İsmayıl əfəndinin qızı Fəridə xanımdır. Uşaqlıq illəri atasının məsul vəzifədə olduğu yerlərdə - Bağdad və Trablus (Tripoli – A.B.) əyalətlərində keçmiş, sonralar "Şat sahillerinde" adlı hekayəsində və atasıyla birlikdə Trablusu anlatdığı "Gecelerimden" adlı xatiratında məsud və unudulmaz uşaqlıq illərindən sevgiylə bəhs açmışdır. Osmanlı dövlətinin hərbi attaşesi vəzifəsində işləyən Şövkət bəy bütün övladlarının təhsili üçün əlindən gələni etmişdi. Belə ki, Müfidə 3 yaşından Trablusda təhsil həyatına başlamış, Paris, London şəhərlərində yüksək təhsilini tamamlamışdı. Fars, ərəb, Fransız, İtalyan dillərini mənimsəmiş, piyano çalmağı, üzgüçülüyü, ata minməyi hobbi kimi öyrənmişdi. Dövrünün elit ailələri arasında rəqabət kimi məşhur olan bu hobbilər sonralar Müfidənin əsərlərində baş qəhrəmanların məşğuliyyəti olaraq əksini tapmışdı. 1907-ci ildə diplomat və dövlət adamı Əhməd Fərid Tək ilə Parisdə ailə quran Müfidə xanım Mütarəkə, Milli Mücadilə, Qurtuluş savaşı illərində həm həyat yoldaşına mənəvi dəstək olur, həm də yazıçı kimi qələmilə mübarizə aparır. "Türk qadını", "Türk yurdu", "Şehbal" jurnallarında, Hakimiyyəti-milliyyə, İradeyi-milliyyə, İrfan qəzetlərində fəal olarq yazılar, kiçik həcmli hekayələr dərc etdirir. Hekayələrində əsasən Süyüm Bikə təxəllüsünü istifadə etmişdir. Yazılarından birində isə Müfidə xanım Qazi Antep ifadəsini istifadə etməklə Antep şəhərinə Qaziantep adının verilməsinə vəsilə olmuşdur (Emel, 1971).

Osmanlı imperiyasını düşdüyü çətin vəziyyətdən xilas etmək üçün tətbiq edilən türkçülük hərəkatı 1913-cü ildə dövlət siyasətinə çevrilmişdi və ədəbi aləmdə öz təsirini göstərməyə bilməzdi. Bu mənada türkçülüyün ədəbiyyatdakı ilk nümunələrindən olan Xalidə Ədib Adıvarın 1912-ci ildə işıq üzü görmüş "Yeni Turan" romanının izlərini Müfidə Fəridin məşhur "Aydemir" romanı davam etdirmişdi.

Bu romanda Müfidə xanım simvolik olaraq qaynı Yusuf Akçuranın həyatından təsvirlərə də yer vermişdi. Əsər ilk dəfə 1918-ci ildə Türk qadını jurnalında dərc olunmuşdu. Əsərin baş qəhrəmanı Aydəmir II Məşrutiyyət illərində Türküstana gedərək buradakı soydaşlarını maarifləndirmək yoluyla milli şüuru oyandırmaq üçün fədakarlıq göstərən bir idealist türkdür. Fuad Köprülü Müfidə Fəridin bu romanını şərh edərkən onun milliyyətçilik baxımından Xalidə Ədibdən sonra birinci olduğunu, habelə xaricdə yaşayan türklərdən bəhs etməsi baxımından əhəmiyyətli olduğunu vurğulamış, əsərin digər mühüm cəhətinin isə bir türk qadını tərəfindən yazılması olduğunu qeyd etmişdi (Köprülü, 2007: 123). Bu əsərdəki əsas mesaj "Fukaraya beşaret, üseraya serbestlik, kalbi kırık olanlara teselli, zulüm altında ezilenlere hürriyet vermek" idi.

Müfidə Fərid Tək türk milliyyətçisi bir ədibə idi. Onun feminizmə baxışı da milli mübarizə çərçivəsində və millətçilik nöqteyi-nəzərdən formalaşmışdı. Müfidə xanım qadınların azadlığını, bərabərliyini, ictimai həyatda iştirakını, peşə və iş həyatına addım atmasını, özlərini təkmilləşdirməsini müdafiə edərkən, kişilərə itaət etməyi, evliliyin yalnız uşaq baxmaq və böyütməkdən ibarət olduğu düşüncəsini rədd edirdi. O, qadın məsələsini milli-ictimai mənafelər baxımından nəzərdən keçirərək "milli-sosial məsələ" kimi qiymətləndirmiş, patriarxal hegemoniya içində qadınlığın səsini duyurmuşdu. "Pərvanələr", "Leyla" və "Affolunmayan günah" romanlarında, "Həyat xanım" hekayəsində Müfidə xanım qadın mövzusuna qərb-şərq mədəniyyəti sintezində münasibət nümayiş etdirmişdi. Əslində, ailə və təhsil mühitinin, atasının, qaynı Akçuranın, həyat yoldaşı Əhməd Fərid bəyin ictimaiyyətlə bilavasitə əlaqədar olması Müfidə xanımın sosiallaşmasını daha çox önə çıxarmış, yazıcılığını ictimai fəaliyyətlərinə dəstək olaraq göstərmişdi. Parisdə türk qadını, türk milli hərəkatı, feminizm mövzularında verdiyi konfranslardakı təbliğatları, iqrarlı düşüncələri onun şəxsiyyətinin əsalətini və milli mövqeyini açıq ortaya qoymuşdu. Hətta Qurtuluş savaşı illərində Mustafa Kamal Atatürklə Pier Lotti arasında yazışmalara aracılıq etdiyi üçün ingilizlər tərəfindən təqib edilmiş cəsur bir xanımdır Müfidə Fərid Tək (Demircioğlu, 1998; Yazıcıoğlu, 2011: 59).

Bütün ömrünü ölkəsinin və türk insanının siyasi-mənəvi azadlığı, haqları uğrunda mübarizə meydanlarında keçirən ədibəmiz 1971-ci ildə 77 yaşında xəstəlikdən vəfat etmişdir.

## Nəticə

Türk qadınlarının Məşrutiyyət (konstitusiyalı monarxiya – *A.B.*) illərindən Cümhuriyyətə qədər keçdiyi proseslər axıcı olmamışdır. Xalidə Ədib, Nəzihə Muhiddin, Şükufə Nihal Başar, Leyla Saz, Güzidə Səbri Aygün, Müfidə Fərid Tək kimi bir çox ədəbələr Osmanlı dövrünü, şəraitini, tarixi-ictimai, ədəbi mühitini seçdikləri həyat tərzlərində davam etdirmiş, o ruhu cəsurca cümhuriyyət illərinə gətirmişlər.

Unudulmaq üzrə olan bu dəyərli xanımlar tarixdə öz izlərini qoyub, adından söz etdirən, işləyən, yetişdirən qadınlar kimi bu günə qədər gəlib çatmışlar. Hələ yeniyetməlik çağlarından böyük bir imperatorluğun çöküşünü, dövrün təzyiqlərini görərək hadisələri əsərlərində əks etditrən dərin duyğulu bu ədibələr Osmanlı dövləti ilə yeni cümhuriyyət arasında körpü olmuş, kişi yazıcılardan fərqli olaraq, irəli sürüb müdafiə etdikləri mövzularla türk ədəbiyyatına yeni baxış, yeni tərz gətirmiş, xüsusilə qadın obrazlarıyla türk romanında yeni cığırlar açmış, qadın hərəkatlarına öncüllük etmiş, konfranslar, dərnəklər səviyyəsində fəaliyyətlərilə ictimaiyyətin bir parçası olmağı bacarmışlar.

Bu gün dünyanın dörd tərəfində çalxalanan şəraitlərin bilavasitə qadın dünyasına vurduğu zərbələri diqqətə alsaq, bir zamanlar haqqında bəhs edtiyimiz ədibələrimizin düşüncələrinin aktual olduğunu, izlərinin ortaya çıxarılması, tədqiq və təbliğ olunmasının, həmçinin günümüzün qadın təşkiltlarının işində örnək alınmasının vacibliyini vurğulamaq bütün sahələr üçün bir ehtiyacdır.

## Ədəbiyyat

1. Avcı, M. (2016). "Osmanlı İmperatorluğunda Qadın Haqları Uğrunda Mübarizə Edən Pioner Qadınlar və Qadın Hüquqlarının İnkişafı". A.Ü. Türkşünaslıq İnstitutunun jurnalı [TAED], 244 s.
2. Akagündüz, Ü. (2018). Mübarizə aparan qadın nümunəsi: Nezihe Muhiddin, marş.
3. Malkoç, N. (1954). "Qadınlarımız Edipslə Müsahibələr". Yeni İstanbul.
4. Yaraman, A. (1999). Türkiyədə Qadınların Siyasi Nümayəndəliyi, İstanbul: Axşam Yayınları, 44 s.
5. Şahin, C., Şahin, M. (2013). Son Osmanlı Dövrü və Milli Mübarizə İllərində Türk Qadınlarının İctimai, Siyasi və Hərbi Fəaliyyətləri, YDÜ İctimai Elmlər İnstitutu Jurnal 2, s.53-72.
6. Altınkaynak, H. (2007). Türk Ədəbiyyatında Şair ve Yazarlar Sözlüğü. İstanbul: Doğan Kitab Yayınları, 632 s.
7. Zihnioğlu, Y. (2003). Qadınsız İnqilab, İstanbul: Metis Yayınları, s.21-45.

8. Özen, H. (1990). Tarixi Prosesdə Türk Qadınları Qəzet və Jurnalları (1968-1990). İstanbul, 14 s.
9. Naci, E. (1940). "Şükufe Nihal", Yarım Ay jurnalı, 8:118, s.15-16.
10. Ayşe, Ö. (2021). Qadın Hüquqlarına Həsr Edilmiş Həyat: Nezihe Muhiddin, Kartal Bələdiyyəsi Ədəbiyyat Mədəniyyət və İncəsənət jurnalı, may-iyun.
11. Şenol Cantek, F. (2011). Wilds and Natives, İstanbul: İletişim Yayınları, 2-ci nəşr, s.34-35.
12. Balcı, M., Tuzak, M. (2017). "Nezihe Muhiddin Xüsusi İşində Cümhuriyyətin İlk İllərində Türk Qadınlarının Siyasi Haqqlar Uğrunda Mübarizəsi". Marmara Universiteti Qadın və Gender Araşdırmaları Jurnalı, Cild 1, Sayı 1, 46 s.
13. Önberk Armağanı, N. (1997). Çağdaş Türk Ədəbiyyatına Kritik Baxış, Ankara: Şafak Matbaacılık, 257 s.
14. Uğurlu, S.B. (2015). Populyar Roman və Nezihe Muhiddin, Ərzurum: Salkımsöğüt Yayınları, 129 s.
15. Hamzaoğlu, M. (2018). Tənzimatdan İlk Cümhuriyyət Dövrünə Türk İctimai və Siyasi Həyatında Görkəmli Qadınlar, 2-ci cild, 1-ci Sayı.
16. İnan, A. (1969). Atatürk və Qadın Hüquqlarının Qazanılması, İstanbul: Milli Təhsil Nazirliyi Nəşrləri.
17. Çaha, Ö. (1996). Sivil Qadın, Türkiyədə Sivil Cəmiyyət və Qadınlar, Ankara: Vadi Yayınları, 10 s.
18. Çakı, C., Doğan, D.K. (2018). Leyla Saz Xanımın Sənət Anlayışı ilə İttifaq və Tərəqqi Təbliğatı: Türk Klassik Musiqisi Vicdan-ı Muazzam, Konservatoriya jurnalı, s.66-81.
19. Şükufə, N. (2001). Tənzimatdan Bu günə Ədəbiyyat Ensiklopediyası, 2-ci cild, İstanbul: Yapı Kredi Yayınları, 773 s.
20. Çakır, S. (2013). Osmanlı Qadın Hərəkatı, Ankara: Metis nəşrləri, s.59-116.
21. Dik, T. (2012). Məkanın Tənzimatdan Cümhuriyyətə çevrilməsi: Nezihe Muhiddin və Leyla Ərbil, Nəşr olunmamış magistr dissertasiyası, Bilkent Universiteti Sosial Elmlər İnstitutu, 4 avqust.
22. http://www.turkkadinlarbirligi.org/index.php?p=genel_icerik&content=tarihce_tuzuk
23. Ötüş, B., Baykan, A. (1999). Nezihe Muhittin ve Türk qadını 1931. İstanbul: İletişim Yayınları, 117 s.
24. Gülcü, E., Tunç, S. (2012). "Osmanlı Mətbuat Həyatında Qadın Dünyası Jurnalı", Çankırı Karatekin Universiteti Sosial Elmlər İnstitutu Jurnal 3, 170 s.
25. Kurnaz, Ş. (1992). Cümhuriyyətdən əvvəl türk qadınları (1839-1923). İstanbul: Milli Təhsil mətbəəsi, 151 s.
26. Müəllif, M.B. (1940). "Ədəbiyyat Sənətçilərimizi Tanıyaq (Şükufe Nihal Başar)". İstanbul: Yedigün jurnalı cild 15, Y:3, 15 s.
27. Toprak, Z. (1923-1935). "Türkiyədə Siyasət və Qadınlar: Qadınlar Xalq Partiyasından Qadınlar Birliyi Konqresinə", 6 s.
28. Argunşah, H. (2011). Bir Cümhuriyyətçi Qadın. İstanbul: Timaş Yayınları, s.236-250-262-283-306.
29. Özkan, A., Durbaş, R. (2002). Cümhuriyyətdən Günümüzə Türk Şiir Antalogiyası, I cild, İstanbul: Siz Yayınları, 256 s.
30. Beşiroğlu, Ş.Ş. (2006). İstanbulun qadınları və onların musiqi kimlikləri, İTÜ Sosial Elmlər Dərgisi, 13 s.
31. Özcan, N. Leyla, S. (1979). İslam Ensiklopediyası, İstanbul: Milli Maarif mətbəəsi, 27-ci cild, 158 s.
32. Dəmir, S. (2000). Leyla Saz Xatirələri. İstanbul: Dünən Bu Gün Sabah Nəşrləri.
33. Kaplan, L. (1988) Türk Qadınları Cəmiyyətlərdə və Siyasi Örgütlərdə, Ankara: Yüksek Okulu Yayınları, 141 s.
34. Kaymaz, İ.Ş. (2010). Çağdaş sivilizasiyanın məhək daşı: Türkiyədə qadınların ictimai mövqeyi, Ankara Universiteti Türk İnqilab Tarixi İnstitutu, Atatürk Yolu Dərgisi, 336 s.
35. Emel, E. (1971). "Müfide Ferit Tek", Türk Mədəniyyəti İli 9-cu Sayı 103 May.

36. Köprülü, M.F. (2007). Bugünkü Ədəbiyyat, Akçağ Nəşrləri, 240 s.
37. Demircioğlu, C. (1998). Müfide Ferit Tek və Romanlarında Milliyyətçilik, Boğaziçi Universiteti, TDE Bölümü Magistrlik Tezi, 25 s.
38. Yazıcıoğlu, T. (2011). Tənzimatdan Cümhuriyyətə Leyla Saz və Əsərlərinin Sosioloji Təhlili, NÜ, SBE, İyun, 59 s.

Göndərilib: 21.01.2023 Qəbul edilib: 01.03.2024